Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Gəlin hüquqlarımızı öyrənək

**Uşaq Hüquqlarının müdafiəsi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Nərgiz Məcidova**
**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Gəlin hüquqlarımızı öyrənək:** Uşaq Hüquqlarının müdafiəsi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. N.Məcidova; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red R. Məmmədli - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2022. – 30s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Tərtibçidən

1980-cı illərin sonu 90-cı illərin əvvəllərində xalqımızın başına gətirilən müsibətlər cəmiyyətdə sabitliyin pozulması, ciddi çətinliklərlə üzləşməyimiz, səksəkə və təşviş içində yaşamağımız uşaqların da həyatında öz mənfi təsirini göstərmişdir. Baş verən müharibələr onların da həyatından şən qayğısız uşaqlıq illərini almışdır. Axıdılan qanlar, o cümlədən uşaqların gözü qabağında həmyaşıdlarının amansızcasına həlak olmaları uşaqların psixologiyasına öz təsirini göstərmişdir. Bu dövrdə müharibə şəraitində yaşayan bir ölkədə uşaqların qayğısına qalmaq üçün onların müəyyən problemlərinin həllini təşkil etmək üçün dövlətin köməyə ehtiyacı var idi. Bu dövrdə məktəblər, tibb ocaqları, uşaqların tərbiyəsində rol oynayan mədəniyyət ocaqlarının – kitabxanaların, teatrların muzeylərin dağıdılması nəticəsində uşaq hüquqlarının pozulmasına gətirib çıxartmışdı. Bu kimi problemlərin həlli üçün dövlətin müəyyən köməyə ehtiyacı var idi. Bu işdə BMT-nin Uşaq Hüquqlarının qorunması haqqında qəbul edilmiş Konvensiyaya əsasən fəaliyyət göstərən bir sıra təşkilatlar yaxından iştirak etdilər. Bunlar Azərbaycan Uşaq Fondu (1988), Uşaq Hüquqlarının Müdafiə Liqası (1991), Müharibə Uşaqları Beynəlxalq Qeyri Dövlət Xeyriyyə Fondu və s. təşkilatlar olmuşlar. Hər bir şəraitdə uşaqların öz hüquqlarını müdafiəsini bilməsi cəmiyyətin həm fiziki həm də zehni cəhətdən sağlam olması üçün əsas şərtdir. Uşaqlar hansı hüquqlara malik olduqlarını bilmələri üçün onlar gərək bu hüquqları dərk etməyi və onlardan istifadə etməyi öyrənsinlər. Bunları öyrənməklə onlar gələcəkdə demokratik cəmiyyətdə, məlumatlı və fəal bir vətəndaş kimi iştirak etməyə, öz hüquqlarını necə qorumağa (istər məktəbdə, istərsə də sərbəst həyatda iştirak etməyə) hazırlanırlar. Buna nail olmaq üçün uşaq hüquqlarının öyrədilməsində məktəblərlə

yanaşı kitabxanaların da üzərinə böyük vəzifələr düşür. Hazırladığımız vəsait inanırıq ki, öz hüquqlarını öyrənməkdə uşaqlara yaxından kömək edəcəkdir.
Giriş hissədə Konvensiyanın yaranma tarixi və fəaliyyəti, II hissədə isə kitabxanada bu münasibətlə keçirilməsi nəzərdə tutulan tədbirlər haqqında məlumat verilib.

## BMT-nin Uşaq Hüquqları Konvensiyası

1989-cu il noyabrın 20-də BMT tərəfindən qəbul edilən Uşaq hüquqları Konvensiyası uşaqların hüquqlarının qorunması sahəsində hazırlanmış ən mükəmməl beynəlxalq sənəddir. Hazırda Demokratik ölkə olan Azərbaycanda 1992-ci ildən bu Konvensiyaya qoşulmuş 189 ölkənin sırasındadır.Ümumiyyətlə, Uşaq hüququnu qorumaq üçün ilk təşəbbüs 1924-cü ildə Millətlər Cəmiyyətinin hazırladığı "Cenevrə" bəyannaməsi ilə yaranmışdır. 1959-cu ildə isə BMT Baş Məclisi "Uşaq Hüquqları Bəyannaməsi"ni qəbul etmişdir.Lakin bəyannamənin hüquqi qüvvəsi olmadığından 1979-cu ildən təşkilat bu işin həlli ilə bağlı xüsusi işçi qrupu yaradaraq,1989-cu il noyabrın 20-də rəsmi şəkildə BMT-nin Uşaq Hüquqları Konvensiyasını qəbul etmişdir. Sənəd 1990-cı ildə 20 dövlətin razılığı ilə qüvvəyə minmişdir. Sonrakı mərhələdə isə bütün dövlətlər konvensiyaya qoşularaq, onun prinsip və öhdəliklərini dəstəkləmişlər.

Konvensiyanın prinsipi əsasən uşaq şəxsiyyətidir. Konvensiya bu işə qoşulmuş ölkələri uşaqlara, öz vətəninin sosial-iqtisadi həyatında daha yaxından iştirak etmək üçün şərait yaratmağa çağırır. Burada əsas məqsəd uşaqların xoşbəxt böyümələri, həmçinin onların rifahı naminə göstərilən hüquq və azadlıqlardan istifadəni təmin etmək, uşaqlar arasında ayrıseçkiliyə yol verməməkdir. Uşaqlar irqindən, dinindən, dərisinin rəngindən, cinsindən, əmlak vəziyyətlərindən asılı

olmayaraq öz hüquqlarından istifadə etməlidirlər. Konvensiyada bu hüquqlar müəyyən formada qruplaşdırılmayıb. Lakin şərti olaraq bu hüquqları dörd qrupa bölmək olar. Bunlar – **yaşamaq hüququ qrupu, inkişaf hüququ qrupu, müdafiə hüququ qrupu, və iştirak hüququ qrupudur**. Bu hüquqlar qrupu dövlətləri uşaqlara gücləri çatdığı qədər cəmiyyətin həyatında yaxından iştirak etmək üçün şərait yaratmağa, onların şəxsiyyət olaraq yetişməsini təmin etməyə çağırır.

Konvensiyanın bu qədər mühüm əhəmiyyət kəsb etməsi bir də onunla izah olunur ki, o, özündə gələcəyi əks etdirir.

Uşaqlara məhəbbətlə yanaşan cəmiyyət onların qabiliyyətlərini tam aça bilməyə şərait yaratmaqla onların azadlıqlarının təmin edilməsini dəstəkləyir. İntelektual, mədəni, əxlaqi və mənəvi qabiliyyətlərini inkişaf etdirmək üçün uşağa hər bir şərait yaradılır. Burada da hər bir ölkənin gələcək taleyi indiki uşaqların əlindədir prinsipinə əsaslanır.

Ölkəmiz isə bu konvensiyaya 1992-ci il iyulun 21-də üzv olmuşdur. Sonralar isə həmin sənədin müvafiq protokollarına qoşulub və bu konvensiyadan irəli gələn hər bir məsələnin həllinə çalışılır.

Məlumdur ki, uşaq hüquqları konvensiyasının yerinə yetirilməsinə beynəlxalq miqyasda Birləşmiş Millətlər Təşkilatının Uşaq fondları – YUNİCEF nəzarəti yerinə yetirir. Bu təşkilatın respublikadakı nümayəndəliyi təhsil, səhiyyə, sahəsində aparılan islahatların təşkilində yardım edir.
54 maddədən ibarət Konvensiyada bütün hüquqlar 4 qrupa ayrılır.

**İnkişaf hüququ** – bu qrupda olan hüquqlar uşaqların öz potensiallarının tam inkişafına olan ehtiyaclarını təmin edir. Bura, məsələn, təhsil almaq, oynamaq, istirahət etmək,

tədbirlərə cəlb edilmə, iştirak etmə, azad fikir və din hüquqları aiddir.

**Müdafiə hüququ** – bu hüquqlar uşaqları müxtəlif növ zorakılıq və istismardan qorumalıdır. Bu hüquqlar, məsələn, qaçqın uşaqlara qayğının göstərilməsi, zorakılıq, cəzalandırma, hərbi münaqişələrə cəlb edilmə, uşaq əməyinin istismarı, narkotik maddələrin inkişafı kimi məsələlər əhatə edir.

**İştirak hüququ –** bu hüquqlar uşaqlara yaşadıqları cəmiyyətdə fəal iştirak etməyə imkan yaradır. Bunlar azad fikir söyləmək, onların həyatlarına təsir göstərən hallarda öz sözlərini demək, birləşmək və assosasiyalar əmələ gətirməkdir. Uşaqların bacarıqları inkişaf edərkən onların cəmiyyətdə fəal iştirakı və bunun üçün imkanları daha da artır. Bu da məsuliyyətli vətəndaş kimi yetişməkdə onlara yardım edəcək.

**Yaşamaq hüququ –** bunlara uşaqların yaşamaq və bunun üçün lazımi tələbatları təmin etmək hüquqları aiddir. Həmçinin qrup qida, tibbi xidmətə malik olmaq kimi hüquqları əhatə edir.

## Keçiriləcək tədbirlər

Artıq bir neçə ildir ki, Azərbaycanda Uşaq hüquqları aylığı keçirilir. Bu ildə ölkəmizdə BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin ildönümü ərəfəsində 20 oktyabr – 20 noyabr tarixlərində "Hər bir uşağın qayğısına qalaq!" devizi ilə Uşaq hüquqları aylığı keçiriləcək. Aylıq çərçivəsində Azərbaycanın şəhər və rayonlarında uşaq hüquqlarının təbliğinə xidmət edən "dəyirmi masa" lar, treninqseminarlar keçiriləcək, orta ümumtəhsil məktəblərində, uşaq müəssisələrində maarifləndirmə tədbirləri, müsabiqələr və sərgilər təşkil olunacaq.

Uşaq hüquqlarının pozulması bu gün aktual bir mövzu olduğundan uşaqlara öz hüquqlarını necə qorumağı təbliğ etmək

lazımdır. Kitabxanamızda da bu işlə əlaqədar bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Kitabxanada "uşaq hüquqları həftəsi" keçirilməsi məqsədəuyğundur. Həftə ərzində uşaqları konvensiyada nəzərdə tutulmuş hüquq və vəzifələr ilə tanış etməklə, bu sahədə onları daha çox məlumatlandırmış olarıq. Oxuculara hüquqlarından bəhs edən bukletlər hazırlayıb, paylanması isə əyani vəsait kimi təbliğat işində yardımçı olar. Həmçinin uşaqların ədəbiyyata, mütaliəyə marağını artırmaq üçün ədəbiyyatımızda hüquqları pozulmuş uşaqların həyatından bəhs edən əsərlərin icmalını keçirə bilərik. Belə əsərlərə Süleyman Sani Axundovun "Qaraca qız", Tağı Şahbazi Simurqun "Qayçı" hekayələri, müasir yazıçılardan Sevinc Nuruqızının "Qisas" kitabı Reyhan Yusifqızının "Yaşıl gözlü qız kitabı, Viktor Hüqonun "Səfillər" əsərlərinin icmalını verə bilərik. Bu əsərlər müxtəlif dövrlərdə yazılmışdır. Qayçı hekayəsində atası tərəfindən kobud rəftar olunan Məmməd obrazı, "Qaraca Qız" dakı Qaraca qızın acı taleyi uşaqların ailədə hüquq pozuntularına mükəmməl nümunədir. Küçə həyatı yaşayan Qavroşun həyat tərzi ümumbəşəri fəlakət sayılan müharibənin acısının tərənnümüdür.

Onlara ayrı-ayrı hüquqların bir-biri ilə əlaqələrindən misallar göstərə bilərik. Məs: Əgər öz tibbi hüququnuzdan düzgün istifadə etməsəniz, lazımi tibbi xidmət almasanız, təhsil imkanlarınızdan da istifadə edə bilməzsiniz. Çünki sağlamlığını itirmiş bir şəxs sabah təhsilə də yararsız olacaq. Bununla uşaq yaşlarından ağır işlərdə işləməyə məcbur olaraq istismara məruz qalacaqdır. Bu da uşaq yaşlarınızdan hüquqlarınızın pozulmasına, zorakılığa gətirib çıxaracaqdır.

Bundan başqa uşaqlara **"Hüquqlarımızı öyrənək"** adlı slayd da təqdim etmək olar.

## Hüquqlarınızı bilirsinizmi?













Giriş
Azərbaycan Milli Məclisinin
21 iyun 1992-ci il qərarına əsasən
Azərbaycan BMT-nin Uşaq
Hüquqları Konvensiyasına qoşulub.


Uşaqlıq yaşının təyin edilməsi
Ayrı-seçkiliyin qarşısının alınması
Uşaq hüquqlarının ən yaxşı təmin edilməsi
Hüququn həyata keçirilməsi
Sağ qalmaq və inkişaf etmək
Fərdiliyin qorunub saxlanması
Valideynlərdən ayrılmaq
Ailənin qovuşması
Uşağın yerinin qanunsuz dəyişdirilməsi
Müvafiq informasiyadan istifadə etmək
Laqeyd rəftar hallarından müdafiə
Ailədən məhrum olmuş uşaqların müdafiəsi
Qaçqın uşaqlar
Təhsil
Uşaq əməyi
Silahlı münaqişələr


Sağ qalmaq və inkişaf etmək
Hər bir uşaq yaşamaq üçün ayrılmaz hüquqa malikdir
Dövlət uşağın sağ qalması və inkişafını təmin etməlidir.


Hüququn həyata keçirilməsi
Dövlət bu Konvensiyada nəzərdə tutulan hüquqların həyata keçirilməsi üçün bütün mümkün tədbirləri görməlidir.


Valideynlərdən ayrılmaq
Uşaq valideynləri ilə yaşamaq hüququna malikdir. Bir şərtlə ki, bu uşağın mənafelərinə zidd olmasın.
Uşaq valideynlərdən biri və ya hər ikisi ilə ayrıldıqdan sonra onların hər ikisi ilə əlaqə saxlamaq hüququ var.


Ailənin qovuşması
Ailənin qovuşması və ya uşaqla valideyn arasındakı şəxsi münasibətlərin saxlanması məqsədilə uşaqlar və onların valideynləri hər hansı ölkəni tərk etmək və öz ölkəsinə getmək hüququna malikdir.


Uşaq əməyi
Uşağa onun sağlamlığı, təhsili və ya inkişafı təhlükə törədən iş tapşırılıqda o, müdafiə hüququna malikdir.
Dövlət işə qəbul üçün minimal yaş həddi təyin etməlidir.
Dövlət əmək şəraiti barəsində tələblət qoymalıdır.


Təhsil
Uşaq təhsil hüququna malikdir. Buna görə də dövlətin vəzifəsi uşaqları pulsuz icbari ibtidai təhsillə təmin etməyə borcludur.
Hər bir uşağın ala biləcəyi orta təhsil verilməsini həvəsləndirməkdən, hamının ali təhsil almaq imkanını təmin etmək dövlətin borcudur.
Məktəb intizamı uşağın hüquqlarının nəzərə alınması və onun ləyaqətinə hörmət edilməsi şərti ilə təmin olunmalıdır.


Ailədən məhrum olmuş uşaqların müdafiəsi
Dövlət ailə mühitindən məhrum olmuş uşağın sosial müdafiəsini təmin etməyə borcludur.
Ailə qayğısına alternativ qayğını, yaxud belə hallarda uşağın onlara baxılan müvafiq tərbiyə müəssisələrində yerləşdirilməsini təmin etməlidir.
Bu vəzifələrin yerinə yetirilməsi üçün göstərilən səylər zamanı uşağın mədəni mənsubiyyəti nəzərə alınmalıdır.


Fərdiliyin qorunub saxlanması
Dövlət uşağın fərdiliyinin əsas cəhətlətini qorumağa və zəruri halda bərpa etməyə borcludur.
Buraya ad, vətəndaşlıq və ailə əlaqələri daxildir.


Uşağın yerinin qanunsuz dəyişdirilməsi
Uşaq öz baxışlarını azad ifadə etmək hüququna malikdir.
Özü də həmin uşaqla bağlı hər hansı məsələlərin həlli zamanı bu baxışlara diqqət yetirilməlidir.


Laqeyd rəftar hallarından müdafiə
Dövlət uşağı valideynlər tərəfindən və ya uşağa qayğı üçün məsuliyyət daşıyan digər şəxslər tərəfindən onunla hər hansı pis rəftardan qorumalıdır.
Sui-istifadə hallarının qarşısının alınması üçün müvafiq sosial proqramlar hazırlamalıdır.


Uşaq hüquqlarının ən yaxşı təmin edilməsi
Uşaq barəsində bütün tədbirlərdə onun mənafeləri tam həcmdə nəzərə alınmalıdır.
Əgər uşağa müvafiq qayğı üçün məsuliyyət daşıyan valideyn və ya hər hansısa şəxslər bu qayğını göstərməzsə, onda dövlət uşağı müvafiq qayğı ilə təmin etməlidir.


Qaçqın uşaqlar
Qaçqın uşaqlar və ya qaçqın statusu almış uşaqlar üçün xüsusi müdafiə təmin edilməlidir.
Dövlət bu cür müdafiə və köməyi təmin edən səlahiyyətli təşkilatlarla əməkdaşlıq etməyə borcludur.

Həmçinin yuxarı sinif şagirdləri ilə “ ***Uşaqların hüquq pozuntuları nə ilə əlaqədardır”, Dövlətin uşaq hüquqlarının qorunması və müdafiəsi sahəsində gördüyü işlər”, “Uşaq hüquqlarının təbliği”, “Uşağın maraqlarının daha yaxşı təmin edilməsi”*** sualları ətrafında söhbətlər keçirə bilərik. Keçirilən söhbətlərin düzgün qurulması isə onların öz hüquqlarını yaxşı bilmələri üçün daha real vasitə olar. Bunun üçün burada kitabxanaçı əməyi əsas təşkil edir. Mövzuya dair materiallar, daha sadə dildə seçilməli, onların hüquqlarını necə qorumaları üçün misallar, gündəlik həyatda qarşılaşa biləcək hadisələrdən verilməlidir. Bu halda söhbət daha effektli alınar. Uşaqların hüquqları haqqında anlayışlarını daha da artırmaq üçün anket-sorğusu keçirmək məqsədəuyğundur. Sorğunun suallarını sizə təqdim edirik.

**1)** Hüquq dedikdə nə başa düşürsünüz?

☺ ______________________________________________

**2)** Uşaq hüquqları Konvensiyası tərəfindən hansı hüquqlar qorunur?

☺ ______________________________________________

**3)** Sizcə aşağıdakı hüquqlardan hansı daha vacibdir?

***a)*** İnkişaf hüququ ( təhsil almaq, oynamaq, istirahət etmək, azad fikir və s.)

***b)*** Müdafiə hüququ ( uşaqları müxtəlif növ zorakılıq hallarından – narkomaniya, hərbi zorakılıq)

***c)*** İştirak hüququ ( azad fikir söyləmək, müəyyən lazımi vaxtda öz sözlərini demək və s.)

***d)*** Yaşamaq hüququ (qida, tibbi xidmət və s.)
**4)** Uşaq qəhrəmanlarının hüquqlarının pozulmasından bəhs edən hansı əsərləri oxumusunuz?

☺ Qaraca qız ; Səfillər ; Ə.Məmmədxanlı Qayçı və s.

**5)** Hansı hüquqların konvensiyaya əlavə olunmasını istərdiniz?

☺

______________________________________________

**6)** Hüquq pozuntusu deyəndə nə başa düşürsünüz?

☺ ________________________________________

**7)** Uşaqların inkişafına aşağıdakı hadisələrdən hansı daha mənfi təsir edir?

☺ - Hərbi münaqişələr

☺ - Ailə zorakılığı

☺ - Təhsildə hüquq pozuntuları

☺ - Öz fikirləriniz

## Təhsil hüququ

Təhsil hüququ – təhsil və tərbiyənin humanistləşdirilməsi, insani münasibətlərin əsas prinsiplərini, hər bir uşağın ləyaqətinə hörmətlə yanaşmağı, onun şəxsiyyətini alçaltmamaq, hüquqlarını qorumaq, ona xeyirxah münasibət göstərmək deməkdir. Təhsil haqqında qanuna görə təhsil geniş dünyagörüşə malik, şəxsiyyət formalaşdırılması, milli, mənəvi, əxlaqi, humanist, mədəni, ümumbəşəri dəyərlərə dərindən yiyələnən, insan hüquqları və azadlıqlarına hörmət edən vətəndaşlar yetişdirməkdən ibarətdir.

Ölkəmizin təhsil sisteminin dünya təhsil sistemi ilə bir sırada addımlaması ilk öncə təhsilin humanistləşdirilməsi ilə bağlıdır. Təhsil sisteminin humanistləşdirilməsi – hər bir uşağın ləyaqətinə hörmətlə yanaşmağı, onun şəxsiyyətini alçaltmamaq, hüquqlarını qorumaq, ona xeyirxah münasibətlər göstərməkdən ibarətdir. "Uşaq hüquqları haqqında Qanunun" hər bir maddəsi xüsusi ilə 11-ci (Uşağın tərbiyə almaq hüququ), 16-cı ( Uşağın əsas vəzifələri ), 22-ci (Uşağın təhsil almaq hüququ ), 27-ci ( Uşağın şərəf və ləyaqətinin müdafiəsi hüququ) və s. uşaq hüquqlarına hörmət olunması, müəllim-şagird münasibətlərinin düzgün qurulması, deməkdir. Bu sahədə məktəbin də xüsusi vəzifələri vardır: məktəb də öz növbəsində şagirdlərə başqalarının duyğu və hisslərinə hörmətlə yanaşmağı öyrətməli, onlara məsuliyyət hissi aşılamalıdır. Bəli mədəniyyət və təhsil müəssisələrimiz uşaqlara öyrətməlidir ki, həyat şəraitindən asılı olmayaraq onların həyatda tutacaqları mövqe başqalarına qoyacaqları hörmətdən asılı olacaqdır. Uşaqlar bilməlidir ki, insanlar bir-birinə qəddar münasibətlərdən uzaq olmalı, şəxsiyyəti alçaldan hallarda müdafiə olunmalıdırlar. Müəllim şagird şəxsiyyətində kamil insanı görməli, ona hörmətlə

yanaşmalı və bu yöndə onu istiqamətləndirməlidir. Uşaqların formalaşmasında hazırda əsas diqqət məktəb həyatına yönəldilir. Burada əsasən ailə də bu işlərə cəlb olunur. Müəllim şagird münasibətlərinin formalaşmasında isə aşağıdakı xüsusiyyətlər nəzərə alınmalıdır.

***a)*** müəllim şagird bir birinə qayğı ilə yanaşmalıdır;

***b)*** müəllim də şagird də öz mənliyinə hörmət etməlidir;

***c)*** həm müəllim həm də şagird özünə qarşı tələbkar olmalıdır;

***d)*** burada hörmət və tələbkarlıq qarşılıqlı olmalıdır.

Təhsildə şagirdin azadlığı dedikdə isə aşağıdakılar nəzərdə tutulur.

Şagird öz müəllim və şagird yoldaşları ilə birlikdə öz fikirlərini bölüşmək imkanına malikdir. Həmçinin gələcək taleyini müəyyən etmək, məktəbi, müəllimi, sinfi, dərsliyi seçmək hüququna malikdir. Uşaq hüquqlarının qorunması uşaq təbiətinə yad olan yanaşma və münasibətin, zor işlətməyin əleyhinə çıxır. Konvensiyanın əsas prinsiplərindən biri uşağın iştirakının təmin edilməsidir. Onların fikirlərini dinləmək və onlara hörmət etmək isə bu prinsipin əsasıdır. Həmçinin uşaqlar öz hüquqlarının pozulması və ya təmin edilməsi barədə müxtəlif hekayələr yaza bilər. Bu böyüklərin onlarla necə rəftar etmək istədiklərini, onların necə yaşamaq istədiklərini öyrənmək üçün maraqlı olar və bu yazıların ətrafında səhnəciklər təşkil edə bilərik. Qəzet və jurnal məqalələrindən toplanmış uşaq hüquqlarının pozuntularına aid olan məqalələr ətrafında mövzu müzakirələri

keçirə bilərik. Onlara belə pozuntuların necə qarşısını almaq haqqında məlumat verə bilərik.

Konvensiyanın müxtəlif bəndlərindən istifadə edərək kitabxanada uşaqlarla müxtəlif səhnəciklər hazırlaya bilərik. Uşaq hüquqlarının müdafiəsi ilə bağlı ölkəmizdə azyaşlıların, körpələrin, yeniyetmələrin zəngin daxili potensialının və dünyagörüşünün formalaşmasına imkan verən tədbirlər həyata keçirilir. 1993-cü ildən bu sahənin fəaliyyətini tənzimləyən milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədi ilə ardıcıl islahatlar həyata keçirilir. Respublikamız Uşaq hüquqlarının təminatı ilə əlaqədar bir sıra sazişlərə, o cümlədən 1994-cü ildə "BMT-nin Beynəlxalq Uşaq Hüquqları Konvensiyasına qoşulmuşdur". Uşaqların hüquqları haqqında fikir və düşüncələrini öyrənmək üçün kiçik və böyük yaş qrup uşaqlar arasında "Mənim hüquqlarım" mövzusunda inşa yazı müsabiqəsi keçirmək müsbət nəticə verər. Mövzunu işləyərkən uşaqların müxtəlif informasiya vasitələrindən istifadə etmələri onların bu mövzuda məlumatlanmasına kömək edəcək.

İnşalar yoxlanıldıqdan sonra I, II, III yerin sahibləri mükafatlandırılır. Gah yıxılırlar, gah dururlar, Hətta yamanca yorulurlar. Amma oynamaqdan əsla doymurlar Qoy oynasın uşaqlar! Xoşbəxt olsun uşaqlar. Belə azad belə şən, Belə diyar harda var?!

Körpələrin beşiyində
Qığıltılar qoy var olsun!
Üzlərində, gözlərində
Qoy əbədi bahar olsun!
Uşaqların xoşbəxtliyi keşiyində
Mərd, mətin duran adamlara
Uşaqlardan süd qoxulu salamlar olsun!

“Uşaq hüquqları və sağlam həyat” adlı sərgidə cəmiyyətdə, ailədə uşaqlara qarşı zorakılıq faktlarından misallar göstərmək olar. Bu iş uşaqların dünyagörüşlərinin artmasına, bu sahədə fikirlərinin formalaşmasına əyani şəkildə kömək edəcək. Bu mövzuda uşaqların dünyagörüşünü öyrənmək üçün rəsm müsabiqələrinin keçirilməsi də məqsədəuyğundur.

Kitabxanada mövzu ətrafında hazırlanan sərgilərin də xüsusi əhəmiyyəti var. Beynəlxalaq Uşaq Hüquqları Günü münasibətilə sərgidə Uşaq hüquqlarına dair vəsaitlər, Qanundan bəzi maddələri izahı ilə veririk.

***Başlıq:*** **Mənim hüquqlarım məni qoruyur**

Uşaq da meyvə tək yetişən olar, Əsəbi
bərkiyər, ət-qana dolar.
Elə ki, sümüklə dəri bərkiyər, Qafada
beyninin yeri bərkiyər.
O uşaq kamala can ata-ata,
Ağlına ağıllı söz bata-bata.
Təlim məktəbinə çapar atını, Arzu
şərbətinin duyar dadını.

**Nizami Gəncəvi,**
*şair*

Ana istəyir ki, onun övladı –
Aslan kimi qorxmaz, pərvüqar olsun.
Ətəkdən yapışan, əl açan deyil, Özgəyə
əl tutan, havadar olsun.

**S. Həlimşah,**
*şair*

... Elə düşünməyin ki, siz uşağın tərbiyəsilə yalnız onunla danışarkən və ya öyrədərkən, ya da ona əmr edərkən məşğul olursunuz. Siz onu hər an hətta evdə olmadığınız vaxtda da tərbiyə edirsiniz.

**A.S.Makarenko,**
*pedaqoq və yazıçı*

Uşaq üçün hər bir oyun ciddi xarakter daşıyır, çünki o, oynayarkən yaşayır. O, yalnız oynayarkən öyrənir. Ruhən və cismən böyüyür.

**A.V. Lunaçarski,**
*jurnalist*

Az təhqir görən uşaq, öz ləyaqətini dərindən dərk edən insan kimi yetişər.

**N.Q. Çernişevski,**
*filosof*

Uşaqlar bizim sabahkı hakimlərimizdir, dünyagörüşümüzün, əməllərimizin tənqidçiləridir.

**M. Qorki,**
*rus yazıçısı*

... Uşaqların özlərini görmək, düşünmək və hiss etmək qabiliyyəti var, bunu öz duyğularımızla əvəz etməyə çalışmaqdan ağılsız şey ola bilməz.

**J. J. Russo,**
*filosof*

# Kitab sərgisi















## İntelektual oyun

Bilirik ki, kitabxanalar uşaqları maarifləndirməklə yanaşı onların intellektual səviyyələrinin yüksəldilməsində də xüsusi rol oynayır. Bu səbəbdən də uşaqlara hüquqlarından bəhs edən oyunların keçirilməsi də məqsədəuyğundur. Bu mövzuda uşaqlar arasında bir sıra oyunlar keçirə bilərik. Bu təşəbbüs uşaqların inkişaf hüququna uyğun olaraq, fərdlər arasında irqindən, cinsindən, milli mənsubiyyətindən asılı olmayaraq, bütün uşaqların eyni hüquqa malik olmaları haqqında uşaqları məlumatlandıracaqdır. Oyunu təşkil etmək üçün uşaqlardan ibarət qruplar və komandalar yaradırıq. Oyun konvensiyaya uyğun iki mərhələdə keçirilir. Hər bir mərhələ ayrı-ayrı hüquqlardan bəhs edir. Sonda uşaqların fikirlərini öyrənirik.

### I oyun – İnkişaf hüququ

A – Kollecdə oğlan və qızlardan ibarət kompüter kurslarnın təşkilatçısı. B – Gənclər qrupunun rəhbəridir.

A kollecdə kompüter kurslarına yalnız oğlanları qəbul edir. O fikirləşir ki, qızlar, kursa getsələr də, öyrəndiklərindən istifadə edə bilməyəcəklər. İşlə onların təmini çətin olacaq. Sabah ailə qurduqdan sonra onlara öyrəndikləri lazım olmayacaq.

B isə tamam əks olaraq fikirləşir. O, A-nı dəstəkləmir. Bu əslində ədalətsizlikdir. Həm oğlan həm də qızlar gələcəkdə ailələrin təmini üşün iş qabiliyyətinə malikdirlər. Əgər qızlar da yaxşı təlim almasalar gələcəkdə gəlirli bir işə düzələ bilməzlər.

**Sual:** Kimin fikri doğrudur?

## II oyun

A – orta məktəb tələbəsidir . Siz xarici ölkə tələbələri ilə birgə təhsil alırsınız amma onları xoşlamırsınız. Onlar öz dillərində danışır. Siz onları başa düşmürsünüz. Siz dostlarınızı onlarla danışmamağa, onların öz vətənlərinə getməkləri üçün çağırışlara qoşulmağa çağırırsınız. B-isə A dan fərqli olaraq onlarla ünsiyyət qurmağa, onlardan ölkələri haqqında məlumatlar əldə etməyə, hətta onların dillərini belə öyrənməyə çalışır. **Sual** : Hansı ədalətlidir?

*Gənc oxucuların ifasında səhnəcik. Səhnəyə uşaqlar gəlir. Onlar hüquqları haqqında öz aralarında söhbətə başlayırlar.*

– Uşaqlar, bilirsiniz dünyada təxminən 130 milyon məktəbyaşlı uşaq halda məktəbə gedə bilmir.
– 12 milyona yaxın uşaq hər il müxtəlif qarşısı alınmaz xəstəliklərdən ( malyariya, pnevmaniya,) əziyyət çəkir . – On minlərlə uşaq istismara məruz qalır.
– Uşaqlar niyə belə əziyyət çəkirlər axı? Onlara belə laqeyidliyin səbəbi nədir görəsən?
– Bu uşaqlara necə kömək edə bilərik? Əsrlərlə davam edən müharibələr, onların törətdikləri fəsadlar. Bunun üçün uşaqların hər zaman müdafiəyə ehtiyacı vardır. Axı müharibələr zaman-zaman təkrarlanır. Hər bir uşağınsa firavan həyat sürməyə haqqı vardır. Şən, qayğısız uşaqlıq illərindən onları mərhum etmək olmaz. Bunun üçündə uşaqların hər zaman müdafiəyə ehtiyacı vardır. Elə 1917-ci ildə başlayan I Dünya Müharibəsinin nəticəsi ictimaiyyəti uşaqların müdafiəsinə qalxmağa məcbur etdi. Buna görədə 1924-cü ildə Millətlər Cəmiyyəti 5 maddədən ibarət Uşaq

Hüquqları Konvensiyasını qəbul etdi. – Yox II Dünya Müharibəsindən sonra daha çox müdafiəyə ehtiyac duyulurdu.

Ona görədə 1959-cu ildə bu sənəd rəsmi qəbul edildi.

– Elə dövlətimiz də 1989-cu ildən başlayan müharibədən sonra bu sənədə qoşuldu.

Hələ də müharibə şəraiti hökm sürən ölkədə hüquqlarımızın qorunmasına ehtiyac vardır.

## Uşaq hüquqları necə yaranıb

**1945** İkinci Dünya Müharibəsindən sonra dünyadakı ölkələrin çoxu bir ittifaq, yəni Birləşmiş Millətlər Təşkilatını yaratdılar. Onlar dünyada sülhə və azadlığa birlikdə dəstək olmaq istəyirdilər.

**10 dekabr 1948** – Həmin gün BMT İnsan hüquqları haqqında Ümumi Bəyannaməni qəbul etdi. Dünyadakı bütün insanların malik olduqları əsas hüquqların həm də uşaqlara şamil olunduğu qəbul edildi. Lakin tezliklə belə təklif olundu ki, uşaqların xüsusi olaraq qorunmasına ehtiyac var.

**1950 –** Uşaq hüquqlarının ilk layihəsi hazırlandı. BMT-nin üzvü olan dövlətlərin nümayəndələri bir neçə il onu müzakirə etdilər.

**20 noyabr 1954 –** Həmin gün BMT Uşaq Hüquqları Bəyannaməsini qəbul etdi. Bu cür bəyannamə bütün dövlətlər üçün məcburi hüquqi qüvvəyə malik olmasa da, hər halda onların gələcək fəaliyyət istiqamətləri üçün tövsiyə xarakteri daşıyır.

**1979 –** Həmin il bütün dünyada Uşaq İli kimi qeyd olundu. Hər yerdə uşaq hüquqları barəsində düşünüldü, bu barədə

müzakirələr keçirildi. Uşaqların mənafeyi naminə, bu hüquqların daha detallı işlənib hazırlanmasını və ən əsası, onların məcburi hüquqi qüvvə daşımasını getdikcə daha çox insan arzulamağa başladı.

**20 noyabr 1989** – Həmin gün BMT-nin Baş Məclis Uşaq hüquqları haqqında Konvensiyanı, yaxud başqa cür desək, Uşaq hüquqları haqqında sazişi yekdilliklə qəbul etdi. O vaxtdan indiyədək dünyanın bütün dövlətlərinin hökumətləri bu Konvensiyanı imzalamışdır. Konvensiyanı imzalamaqla onlar öz ölkələrini uşaq hüquqları sahəsində maarifləndirməyə, bu hüquqları öz ölkələrində tətbiq etməyə və uşaqların müdafiəsinə xüsusi diqqət yetirməyə söz vermişlər. Lakin hələ də dünyanın çox yerində uşaqlar ədalətsizlikdən ciddi əziyyət çəkirlər.
Dünyadakı bütün uşaqlar öz hüquqlarından faydalanması üçün tədbirlər görməliyik və buna görə bizim hər birimiz məsuliyyət daşıyırıq. Uşaqlar öz hüquqlarını şəkillər vasitəsi ilə daha yaxşı anlaya bilərlər.

**Maddə 8.**



Maddə 8:

**1.** İştirakçı dövlətlər qeyri-qanuni müdaxiləyə yol vermədən, qanunda nəzərdə tutulduğu kimi, uşağın öz fərdiliyini, o cümlədən vətəndaşlığını, adını və ailə əlaqələrini saxlamaq hüququna hörmət bəsləməyi öhdələrinə götürürlər.

**2.** Əgər uşaq öz fərdiliyinin ünsürlərinin bir qismindən və ya hamısından qanunsuz məhrum edilirsə, iştirakçı dövlətlər onun

fərdiliyinin ən tez zamanda bərpa edilməsi üçün ona lazımi köməyi və müdafiəni təmin dirlər.

**Maddə 31.**

**1.** İştirakçı dövlətlər uşağın istirahət və asudə vaxt hüququnu, yaşına uyğun oyunlarda və əyləncəli tədbirlərdə iştirak etmək və sərbəst surətdə mədəni həyatda iştirak etmək və incəsənətlə məşğul olmaq hüququnu tanıyırlar. 2. İştirakçı dövlətlər uşağın mədəni və həyatında hərtərəfli iştirak etmək hüququna hörmət bəsləyir və rəvac verir, mədəni fəaliyyət və yaradıcılıq fəaliyyəti, asudə vaxt və istirahət üçün müvafiq və bərabər imkanlar verilməsinə kömək göstərirlər.

**Uşaq hüquqları Konvensiyasının prinsipləri.**

**Prinsip 1.** Uşaq bu Bəyannamədə təsbit olunmuş bütün hüquqlardan faydalanmalıdır. Heç bir istisnaya yol verilmədən və uşağın özünün və ya onun ailəsinin irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və ya sosial mənsubiyyəti, əmlak vəziyyəti, doğum və yaxud başqa statusu kimi əlamətlərə görə heç bir fərq qoyulmadan və yaxud ayrıseçkiliyə yol verilmədən bütün uşaqlar bu hüquqlara malikdirlər.

**Prinsip 2.** Uşaq qanun və digər vasitələrlə xüsusi müdafiə ilə təmin edilməli və ona elə imkanlar və əlverişli şəraitlər yaradılmalıdır ki, bunlar onun sağlam və normal yolla, azad və ləyaqətli şəraitdə fiziki, əqli, əxlaqi, mənəvi və sosial cəhətdən inkişafına imkan versin. Bu məqsədlə qanunlar qəbul edilərkən başlıca fikir uşağın maraqlarının ən yaxşı şəkildə təmin edilməsi olmalıdır.

**Prinsip 3.** Uşaq doğulduğu andan ad və vətəndaşlıq hüququna malikdir.

**Prinsip 4.** Uşaq sosial təminatın imtiyazlarından istifadə etməlidir. O, sağlam böyümək və inkişaf etmək hüququna malikdir, bu məqsədlə həm o, özü, həm də onun anası, doğumdan əvvəl və doğumdan sonrakı lazımi qayğı da daxil olmaqla, xüsusi qayğı və müdafiə ilə təmin edilməlidir. Uşaq lazımi qaydada qidalanma, mənzil, əyləncə və tibbi xidmət hüququna malikdir.

**Prinsip 5.** Fiziki, əqli və yaxud sosial baxımdan qüsurlu uşaq, onun xüsusi vəziyyətinə görə zəruri olan xüsusi rəftar, təhsil və qayğı ilə təmin olunmalıdır.

**Prinsip 6.** Uşaq, şəxsiyyətinin tam və ahəngdar inkişafı üçün sevgiyə və başa düşülməyə ehtiyac duyur. O, mümkün olduğu qədər öz valideynlərinin himayəsi və məsuliyyəti altında və istənilən halda sevgi, mənəvi və maddi təminat mühitində böyüməlidir; azyaşlı uşaq, müstəsna hallar istisna edilməklə, öz anasından ayrılmamalıdır. Ailəsi olmayan uşaqlara və yaşamaq üçün kifayət qədər vəsaiti olmayan uşaqlara xüsusi qayğı göstərmək cəmiyyətin və ictimai hakimiyyət orqanlarının vəzifəsidir. Yaxşı olardı ki, çoxuşaqlı ailələrə uşaqları saxlamaq üçün dövlət müavinətləri və ya digər müavinətlər ayrılsın.

**Prinsip 7.** Uşaq təhsil almaq hüququna malikdir, bu təhsilin heç olmazsa ibtidai mərhələləri, pulsuz və məcburi olmalıdır. Ona elə bir təhsil verilməlidir ki, bu, onun ümumi mədəni inkişafına kömək etsin və bu inkişaf sayəsində o, imkanların bərabərliyi əsasında öz qabiliyyətlərini və şəxsi mühakiməsini, habelə mənəvi və sosial məsuliyyət düşüncəsini inkişaf etdirə və cəmiyyətin faydalı üzvü ola bilsin. Uşağın maraqlarının ən yaxşı şəkildə təmin edilməsi onun təhsili və təliminə məsuliyyət daşıyanlar üçün rəhbər prinsip olmalıdır: bu məsuliyyət hər şeydən əvvəl onun valideynlərinin üzərinə düşür. Uşaq, təhsilin xidmət etdiyi məqsədlərə xidmət edən oyunlarda və

əyləncələrdə iştirak etmək üçün tam imkanlarla təmin olunmalıdır; cəmiyyət və ictimai hakimiyyət orqanları göstərilən hüququn həyata keçirilməsinə imkan yaratmaq üçün səy göstərməlidirlər.

**Prinsip 8.** Uşaq bütün hallarda müdafiə və yardımı ilk növbədə alanların sırasında olmalıdır.

**Prinsip 9.** Uşaq laqeyd və amansız münasibətin, habelə istismarın bütün formalarından müdafiə olunmalıdır. O, heç bir formada alver obyekti olmamalıdır. Uşaq lazımi minimum yaş həddinə çatmayana qədər işə qəbul edilməməlidir; heç bir halda ona, sağlamlığı və ya təhsili üçün ziyanlı ola biləcək və yaxud onun fiziki, əqli və əxlaqi inkişafına mane ola biləcək hər hansı iş və ya məşğuliyyət tapşırılmamalı və tapşırılmasına icazə verilməməlidir.

**Prinsip 10.** Uşaq irqi, dini və yaxud hər hansı bir digər ayrıseçkilik formasını təşviq edən təcrübədən uzaq tutulmalıdır. O, qarşılıqlı anlaşma, dözümlülük, xalqlar arasında dostluq, sülh və ümumi qardaşlıq ruhunda, həmçinin öz enerjisini və istedadını yoldaşlarının xeyrinə sərf etmək düşüncəsində tərbiyə olunmalıdı.

**Ədəbiyyat siyahısı**

**Adilov N.** Müasir beynəlxalq hüquq və Azərbaycan Respublikası qanunvericiliyində uşaq hüquqlarının müdafiəsi : nəzəri və praktiki məsələlər. - Bakı : Aypara-3, 2010. - 288 s.

**Azərbaycan Uşaq və** Gənclərin Sülh Şəbəkəsi : fotoalbom. - Bakı : Təhsil Nəşriyyat-Poliqrafiya MMC, 2011. - 48 s.

**Azərbaycan Uşaq və** Gənclərin Sülh şəbəkəsi -10 il. - Bakı : Oğuz evi, 2010. - 288 s.

**Azərbaycanda Yuvenal Ədliyyə** = Yuvenile Yustice in Azerbaijan : 1998-2005 / Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı. - Bakı : [s. n.], 2006. - 112 s. - Azərbaycan və ingilis dillərində.

**Heydər Əliyev və uşaqlar** : metodik vəsait. - Bakı : Azərbaycan Milli Kitabxanası, 2008. - 126 s. - Ulu öndər Heydər Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr edilir.

**İbrahimov İ.** Azərbaycan uşaq fondunda : 1988-2005. - Bakı : Nafta Press, 2006. - 298 s.

**İnsan və uşaq hüquqlarının** Avropa və BMT sistemi çərçivəsində müdafiəsi mexanizmləri = Механизмы зашиты прав человека и ребенка в рамках Организации Объединенных Наций и Совета Европы. - Bakı : [s. n.], 2005. - 214 s.

**Uşaq hüquqları hamı üçün**: Uşaqları dinləyək, onların iştirakını təmin edək! : 20 noyabr 1989-cu ildə qəbul edilmiş BMT-nin "Uşaq Hüquqları haqqında Konvensiyası"nın "20 illiyi"nə və Azərbaycan Respublikasında "Uşaq ilinə" həsr olunur. - Bakı : [s. n.], 2009. - 128 s.

**Uşaq hüquqları Konvensiyası**. - Bakı : Qismət, 2013. - 64 s. - (Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) aparatı). - Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 noyabr 2012-ci il tarixli 2061 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.

**Uşaq hüquqları üzrə** pilləli tədrislə bağlı seçilmiş mövzular : Azərbaycan Respublikası Təhsil Nazirliyinin 5 noyabr 2009-cu il tarixli 1231 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir. - Bakı : [s. n.], 2009. - 288 s.

**Uşaq hüquqları və** onların tədrisi - Bakı : [s. n.], 2006. - 110 s. : il. ; 20 sm. - (Heç Bir Uşağı Nəzərdən Qaçırmayaq).

**Uşaq Hüquqlarına dair** Məlumat Materialları və Uşaq Hüquqları sahəsində Mütəxəssislər və Təlimçilər üzrə Bələdçi. - Bakı : [s. n.], 2006. - 32 s. - (Heç Bir Uşağı Nəzərdən Qaçırmayaq).

**Uşaq hüquqlarının pilləli** tədrisi üzrə seçilmiş mövzular. - Bakı : Qismət, 2013. - 224 s.

**Uşaqlar: Azərbaycanın bu** günü və sabahı. - Bakı : [s. n.], 2006. - 48 s. : foto. - (Heç Bir Uşağı Nəzərdən Qaçırmayaq = Leave No Child Out). - Azərbaycan və ingilis dillərində

***Dövri mətbuatda***

**Ələddinqızı N.** Ölkəmizdə gələcəyin qurucusu olacaq uşaqların işıqlı sabahı təmin edilir : 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Gününü qeyd edən Azərbaycan bütün demokratik dövlətlərdə olduğu kimi, uşaq hüquqlarının qorunmasına xüsusi önəm verir // Səs. - 2017. - 1 iyun. - № 96. - S. 13.

**Əmircanov P.** Azərbaycan uşaqları hər cür qayğı və məhəbbətlə əhatə olunub: 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü // Xalq qəzeti. - 2017. - 1 iyun. - № 116. - S. 9.

**Hacalıyev E.** Azərbaycan dövləti uşaqlara yüksək qayğı göstərir : 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür // Azərbaycan. - 2017. - 1 iyun. - № 116. - S. 11.

**Hüseynova H.** Uşaqlar dövlətin sabahı, millətin gələcəyidir : 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür // Azərbaycan. - 2017. - 1 iyun. - № 116. - S. 11.

**Hüseynova H.** Uşaqlar hər bir dövlətin sabahıdır : 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür // Kaspi. - 2016. - 1 iyun. - № 94. - S. 7.

**Hüseynova H.** Uşaqlar - sabahımızın təminatıdır : 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür // Kaspi. - 2015. - 2 iyun. - № 97. - S. 11.

**Xəlilzadə F.** Ömrümüzün işığı, evimizin bərəkəti : 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür // Kaspi. - 2016. - 1 iyun. - № 95. - S. 9.

**İbrahimov İ .** Uşaqların sevinci dünyanın sevincidir : 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür // Respublika. - 2015. - 31 may. - № 115. - S. 7.

**İsmayılova E.** Uşaqlara qayğı gələcəyə qayğıdır : 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür // Xalq qəzeti. - 2015. - 31 may. - № 115. - S. 9.

**İsmayılova S.** Uşaqlara qayğı Vətənin gələcəyinə qayğıdır : 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür // Azərbaycan. - 2016. - № 116.

**İsmayılqızı X.** Uşaqları qoruyaq, gələcəyimizi sağlam nəslə etibar edək : 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür // İki sahil. - 2015. - 30 may. - № 96. - S. 25.

**Qurbanqızı Z.** Hər uşağın ailəyə ehtiyacı var... : 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür // Respublika. - 2015. - 31 may. - № 115. - S. 7.

**Məmmədova K.** 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür // Təhsil problemləri. - 2015. - 24-31 may. - № 39/40. - S. 11.

**Məmmədova N.** Onlar bizim gələcəyimizdir : 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü // Xalq qəzeti. - 2017. - 1 iyun. - № 116. - S. 9.

**Rəis X.** Bu gün onların günüdür : gününüzü uşaqlarınıza həsr edin // Kaspi. - 2017. - 1 iyun. - № 96. - S. 14.

**Sadıqlı F.** Ömrümüzün çiçəyi, bəzəyi... : 1 iyun Uşaqları Beynəlxalq Müdafiəsi Günüdür // Azərbaycan : qəzet. - 2015. - 31 may. - № 115. - S. 8.

**Uşaqların sosial müdafiəsi** dövlət siyasətinin mühüm tərkib hissəsidir : 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü // İki sahil. - 2017. - 1 iyun. - № 96. - S. 15.

# Gəlin hüquqlarımızı öyrənək

(metodik vəsait)

**Komputer yığımı və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**